**Abil Ulusoy**

***Ruhani Hərəkata gələcəkdən baxa bilmək***

Günaydın, istəkli yurddaşlarımız!

Asif Ata Ocağının "Özəl buraxılış"ında sizlərə təqdim elədiyim düşüncələrim Ocağa yaxın olan bir şəxsin – Ocaqdostu kimi mənim dərin və hərtərəfli müşahidələrimin ifadəsidir. Mən Türk Peyğəmbəri Asif Atanın ömrünə də ciddi bələdəm. Mütləqə İnam Dünyabaxışına inanan və onun qurucularına doğma olan bir insanın münasibəti və sevgisi düşünürəm ki, Ocaq pərəstişkarlarının, eləcə də Mütləqə İnam hadisəsini istəyənlərin marağına səbəb ola bilər.

Mənim Asif Ata ilə tanışlığım 20 ildən artıq bir vaxtı əhatə edir. Elə ilk görüşdəcə məndə Atanın sözünə, Yoluna inam yarandı. Bununla da mərhəm münasibətlərimiz quruldu və daim inkişaf elədi. O vaxtdan Atanın yaradıcılığını, mətbuatda dərc olunan yazılarını ardıcıl oxumağa başladım. Bu da mənim Ocağın iç dünyası ilə tanışlığımı dərinləşdirirdi. Asif Ata ömrünün bənzərsizliyi, onun baxışının Türk Dünyasına gərəkliyi ağlımda gündən-günə oturuşmağa başlamışdı. Ayrı-ayrı Ocaqçıların fədakarlıqları, Ata işinin həyata keçməsinə layiqli xidmət göstərmələri adamda mücadilənin uğurlar qazanacağına ümid yaradırdı. Artıq anlamışdım ki, Azərbaycanda hər cür fəaliyyətdən yüksək olan bir hadisə var, Ruhani Hərəkat var. Bu Hərəkat Azərbaycanın ictimai-siyasi gedişlərinə əsaslı təsir göstərir. Mən siyasi fəaliyyətin içində olan bir şəxs kimi bunu aydın görürdüm və bir türk olaraq, bir azərbaycanlı olaraq bundan qürur duyurdum. Bütün hadisələr öz təsir istiqamətini kənardan götürdüyü halda, Ocaq öz içindən stimul götürürdü. Vətən üçün, millət üçün fəaliyyət göstərən yeganə müstəqil və təmənnasız bir Hərəkat idi. Ona görə də həyatın bütün sahələrinə Asif Atanın təsiri adi gözlə görünə biləcək qədər aydın idi. Ata mətbuat vasitəsilə, keçirdiyi kütləvi və fərdi görüşlərlə istər iqtisadiyyat sahəsinə, istər siyasət, istər mədəniyyət və s. sahələrə yönəlik münasibətlərini bildirirdi, hadisələri dəyərləndirirdi. Bu münasibətlərdən bəhrələnənlər isə aktiv mühitdə yetərincə idi. Atanın adı çəkilməsə də, bəhrələnmələr dilə gətirilməsə də, üslub özünü göstərirdi, təsir aşkar şəkildə görsənirdi.

Qardaşım Bağban Ocaqçı idi. Özü də Ocaq yönündən fəal idi. Bizim söhbətlərimiz çox olurdu. Mən daha çox onun vasitəsilə Ocaq ədəbiyyatları əldə edib öyrənirdim. Ata ilə ünsiyyətlərimdə isə öyrəndiklərim aydınlaşırdı. O vaxtlar Atanın təsirlərinin Azərbaycan sınırlarını aşmasını müşahidə edirdim. Bu, mənim ağlıma yaxşı təsir edirdi. Bu gün mənim əlimdə Atanın ömrünü və fəaliyyətini işıqlandıran xeyli sayda qəzet materialları və başqa ədəbiyyatlar var. İndi mən onlardan səmərəli istifadə edirəm. Ata özü sağlığında mənə "ləyaqətli yurdçu" avtoqrafı ilə çoxsaylı ədəbiyyatlar bağışlamışdı. O vaxt Asif Ata məndən Yurdumuz üçün ciddi addımlar atmağımı umurdu. Həvəsimin və istəyimin dərinləşməsi üçün əlindən gələni edirdi. Mən də üz tutduğum bütün ünvanlarda Atanın fikirlərinə söykənib bacardığım addımları atmışam, bundan sonra da mümkün addımları atmaq iqtidarındayam…

Ümumiyyətlə, Asif Ata və onun Evladları bənzərsiz ömür yaşamışlar. Cəmiyyətdə yaşayıb cəmiyyətin olmamaq Azərbaycan üçün yeni bir hadisədir. Mütləqə İnam Dünyabaxışı insanı cəmiyyətüstü bir mərtəbəyə yüksəldir. Çünki bu, yeni bir Sözdür, yeni bir Yoldur. İnsana bənzərsiz yaşamaq öyrədir. Bəlkə də Hürufilərdən sonra belə bir Hərəkatın yaranması gözlənilən idi. Hürufilər bütün bəşər tarixində insan haqqında ən uca sözü söyləmişlər. Asif Ata İnsan haqqında ən uca sözü yeni mərhələyə çatdırdı və onu sistemləşdirərək İnama çevirdi. Asif Atanın Mütləqə İnam Dünyabaxışı böyük bir sintezdir və bütün bəşəriyyətə gərək olan bir Dəyərdir. Şərqin gerilədiyi bir dövrdə Mütləqə İnamın yaranması sözün həqiqi mənasında bir möcüzədir. Dərindən baxılsa, milli ruhun xilası bu İnamdan başlanğıc götürmüşdür.

Bütün dünyada dahilər nə yaradırsa, təkcə özləri üçün, öz millətləri üçün yaratmırlar – İnsanlıq üçün yaradırlar. ***Asif Atanın baxışlarını əks etdirən 45 kitabı, eləcə də Ocaqçıların sistemləşdirib hazırladıqları böyük bir irsi məhz Türk Yurdunda yaranan, bəşərə gərək olan qürurverici Ruhani bir Xəzinədir.*** Mən qəti əminəm ki, Mütləqə İnamın ciddi bir gələcəyi var.

Asif Atanın yoluna düşən bir çox insanlar ayrı-ayrı hallarda fədakarlıqlar etsələr də, Ocaqda qala bilmədilər. Ancaq Asif Atanın işini ruhani bir ləyaqətlə davam eləyən, öz ömürləri və

fəaliyyətləri ilə ümid verən sanballı Ocaqçılar var. Bu gün onlarla mən doğmayam, yaxınam, dostam. Bunların varlığı ciddi bir örnəkdir. Onlar tarixdən üstün yaşadılar, Ocağı Qorudular, Yaşatdılar. Bu gün də davamlı olaraq yaşadırlar. Bunlar İnamın İlkinləridirlər. Onların qoyduğu ruhani bünövrə üzərində gələcək nəsillər İnam Məbədlərini ucaldacaqlar, onun xəlqi yönə çevrilməsində yeni uğurlar ortaya qoyacaqlar. Bu gün Ocaqçıların ruhani işləri təkcə Ocaqda qalmır, kənara çıxır və öz təsirləri ilə genişlənir.

Mən bir Ocaqdostu olaraq, Asif Atanın ruhani tələblərini yüksək səviyyədə həyata keçirən Ocaq Yükümlüsü Soylu Atalıya və onun rəhbərliyi altında böyük işlər həyata keçirən Ocaqçı dostlarıma dərin minnətdarlığımı bildirirəm. Ata qarşısında, Onun xalqı qarşısında İnsanlıq qarşısında onların şərəfli aqibətlərini kutlayıram. ***Bununla belə, hesab edirəm ki, Ata Ruhuna Pənah gətirmək, Onun Yoluna sevgi bəsləmək və Onun Tələbi ilə addım atmaq təkcə Ocaqçıların işi deyil, hər bir Yurd sevgisi ilə yaşayan insanların görəvi olmalıdır.*** Bu halda Azərbaycan getdikcə Ocaqlaşacaq, Türk Dünyası Ocaqlaşacaq, Şərq Ocaqlaşacaq – Dünyanın Ruhaniyyat mərkəzi yaranacaq.

**Ocağımız Var Olsun!**
**Mütləqə İnam Dünyabaxışı Var olsun!**
**Atamız Var olsun!**

21 Ata Ayı, 32-il. Atakənd.
(sentyabr, 2010).